UOT 75
https://doi.org/10.59849/2311-8482.2025.1.249

SEVİNC ƏSGƏROVA*

# CƏMİYYƏTİN İNKİŞAFINDA MUSİQİNİN ROLU

*Musiqi və incəsənət qədim dövrlərdən bəri insan həyatında mühüm rol oynayır və cəmiyyətin inkişafında ayrılmaz yer tutur. Musiqi — insan ruhuna bədii təsir edən bir sənət növüdür. Musiqinin yaranması ilə bağlı bir çox nəzəriyyələr mövcuddur ki, bunlar onun mənşəyini insan nitqi, biologiya və əmək prosesi prizmasından izah edir. Ən qədim dövrlərdə musiqi alətləri tədricən inkişaf edib: əvvəlcə zərb alətləri, sonra isə üfla alətləri yaranıb və nəhayət, string alətləri meydana çıxıb. Musiqi mədəniyyəti haqqında ilk məlumatlar qədim Şərqdə, xüsusən Misir və Mesopotamiya kimi yerlərdə tapılır. Misir musiqi mədəniyyəti dünyanın ən qədimlərindən sayılır və onun yüksək səviyyəsi yazılı mənbələr ilə təsdiq olunur. Şərq mədəniyyəti, o cümlədən musiqi, poeziya və rəqs ilə sıx əlaqəlidir. Musiqi çox vaxt kosmik hadisələr və təbiət dövrləri ilə izah olunurdu. Bu fikirlər sonradan Yunan mədəniyyətinə keçərək, Avropada fəlsəfə və musiqinin inkişafına təsir göstərdi.*

*Azərbaycan musiqisinin zəngin bir tarixi var və onun kökləri dərin keçmişə gedib çıxır, xüsusilə Qobustan daşlı rəsmlərindən başlayaraq. XIX əsrin ikinci yarısından etibarən Azərbaycanda musiqi mədəniyyətinin sürətli inkişafı baş verdi və bu inkişafda Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov kimi tanınmış ifaçılar və bəstəkarlar mühüm rol oynadılar. Beləliklə, musiqi və incəsənət mədəniyyətin ayrılmaz bir hissəsi olaraq, həm insanın inkişafı, həm də cəmiyyətin irəliləməsi üçün böyük əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** *Tarix, musiqi, qədim mədəniyyət, incəsənət, cəmiyyət, xalq*

## Giriş

Musiqi və incəsənət ta qədimdən insanların həyatına daxil olmuşdur. Cəmiyyətin inkişaf tarixində musiqinin özünməxsus yeri vardır. Musiqi bədii obrazlara gerçəklikdə fəal təsir edən incəsənətin növlərindən biridir.

Musiqi, bir cəmiyyətin mədəniyyətini və tarixini əks etdirən güclü bir vasitədir. Folklor, xalq musiqisi, milli musiqi janrları və digər mədəni formalar cəmiyyətin kimliyini qoruyur və gələcək nəsillərə ötürülür. Musiqi, müəyyən bir dövrün sosial və siyasi şəraitini, adət-ənənələrini və həyat tərzini nümayiş etdirən bir "arxiv" kimi fəaliyyət göstərir. Beləliklə, musiqi cəmiyyətin tarixini yazır və bu tarix, yeni nəsillərə köhnə dövrlərin dəyərlərini və təcrübələrini təbliğ edir.

## Əsas məzmun

Qədim dövrdə musiqinin yaranması ilə bağlı müxtəlif nəzəriyyələr,polemik mübahisələr mövcuddur. Məsələn, H.Spenserin (1820-1903) nəzəriyyəsinə görə musiqi insanın nitqi ilə, onun emosional, həyəcanlı danışığı zamanı nitqində əmələ gələn müxtəlif səslərlə bağlıdır. Ç.Darvin (1803-1882) nəzəriyyəsi musiqinin əmələ gəlməsini bioloji nöqteyi -nəzərdən şərh edir, H.Qrotsi (1585-1645) musiqinin yaranmasını oyunlarla əlaqələndirir və onun sinkretik xarakterini təsdiqləyir, K.Byüxer (1847-1930) musiqinin yalnız əmək prosesinin nəticəsi kimi meydana gəldiyini iddia edir, K.Ştumpf (1848-1936) ibtidai dövrdə musiqinin yaranmasını insanların bir-birinə verdiyi siqnal səsləri ilə bağlı olduğunu iddia edir, Kambaryenin (1859-1916) nəzəriyyəsi musiqinin yaranmasını madiya ilə əlaqələndirir. Artıq məlumdur ki, musiqi insan cəmiyyətinin, insanın nitqinin yaranması ilə birlikdə meydana gəlmişdir. İbtidai icma quruluşu şəraitində yaşayan insanların əmək prosesinin ayrılmaz hissəsini oxumaq təşkil edirdi. Belə ki, qədim insanlar ova gedən zaman oxuyurdular və sanki bu oxuma onları qoruyardı. Zənn olunur ki, ilk dövrdə musiqi qlissando şəklində olmuşdur ki, bu da təbii ki, əmək şəraiti ilə bağlı idi.Lakin qlissando hələ musiqi deyildi. Tədricən qlissando ilə yanaşı iki qonşu səs arasında sekunda intonasiyasının köməyi ilə basit melodiya əmələ gəlir. Sonralar insanlar kvarta intonasiyasının imkanlarında istifadə etməyə başladılar. Beləliklə, yavaş-yavaş səs diapazonın genişlənir, sekunda kvarta ilə birləşir, əvvəl üçpilləli pentatonika daha sonra isə yeddi pilləli səs sırası əmələ gəlir. Beləliklə ibtidai icma dövründə musiqi bir səsli olub, sinkretik xarakter daşıyırdı. [1]

Qədim dövrdə musiqi alətləri də çox mühüm əhəmiyyətə malik idi.Alətlər getdikcə

təkmilləşidi. İlk alətlər zərb alətləri idi, sonra nəfəsli , ən sonunda isə simli alətlər meydana çıxıb.

Musiqi mədəniyyəti haqqında ilk məlumatlar qədim Şərq ölkələridən olan Misir və Messopotamiyaya aiddir. [2]

Misir zəngin musiqi sənətinə malk idi. Misirin musiqi tarixi dünya miqyasında ən qədim mədəniyyət sayılır. Onun tarixi 5 min illik bir dövrü əhatə edir. Qədim Misrin musiqisini maddi mədəniyyət nümunələrindən –təsviri incəsənət abidələri, daha sonra isə latın və yunan dilində yazılmış yazılı mənbələrdən öyrənmək olar. Bu mənbələr Misir mədəniyyətinin yüksək səviyyədə olduğunu sübut edir. [3] Musiqi haqqında tarixdə olan ilk məlumatlar Şərq ölkələrinə aiddir. Şərq mədəniyyəti ən qədim sayıldığı üçün musiqi tarixinin öyrənilməsi də məhz onunla başlanır. Qədim Şərqin misilsiz əbədi mənbələri, ibrətamiz rəvayətləri, alleqoriyaları və təmsilləri bütün dünyada böyük şöhrət qazanmış və bəşər mədəniyyətinin xəzinəsinə daxil olmuşdur. Poeziya, ədəbiyyat, musiqi ilə yanaşı qədim Şərqdə tibb, riyaziyyat, astronomiya, fəlsəfə elmi də inkişaf etmişdir. Misir, Suriya ,Ərəbstan, Fələstin, Çin, Yaponiya, Hindistan, Şumer-Babilistan, Messopotamiya kimi qədim Şərq dövlətləri o dövrdə qabağcıl ölkələr sayılırdı. Qoca Şərqin mədəniyyətinin nəinki yaxın ölkələrdə , hətta bütün Avropaya böyük təsiri olmuşdur. Şərq mədəniyyəti Qədim Yunanstan və Orta əsr mədəniyyətinin də əsasını təşkil edir. Rəvayətə görə əlifba ilk dəfə məhz Qədim Şərqdən Yunanstana gətirilib. Yunanstanın ən yüksək naliyyəti olan antik faciənin meydana çıxmasında yenə də Şərq mədəniyyətinin, onun dram- misteriyalarının böyük rolu olmuşdur. Orta əsrlərdə Qriqorian xorallarında istifadə edilmiş bəzi formalar- psalmlar, psalmodiyalar Şərq mədəniyyətindən götürülüb. [4]

Qeyd etmək lazımdır ki, bütün Şərq öklələri üçün musiqinin poeziya və rəqs ilə bağlılığı səciyyəvidir. Şərq ölkələrində çox vaxt musiqinin insanda oyatdığı təəssüratları kosmik hadisələrlə, kosmologiya, ilin fəsilləri ilə təbiətdəki hadisələrlə bağlı izah etməyə çalışırlar. Bütün Şərq ölkələrinin xalqları musiqi qanunlarını kosmik qanunlara bağlamağa çalışırdılar. Məsələn, çinlilər alətlərin köklənməsini təbiətdə olan 5 əsas qüvvə ilə bağlayır, ladın hər pilləsinə ad verirdilər. Vavilonda musiqi səslərin və ladların planetləri müqayisə edir. Yaponiyada isə hər ladın müəyyən qeyri-təbii qüvvəyə malikliyini, müəyyən emosionol xarakterdə olduğunu qeyd edirdilər. Bütün bunlar Şərq mədəniyyətindən musiqiyə kosmoloji və mifoloji baxışın formalaşmasına səbəb olurdu. Sonralar bu ideya yunan alimləri tərəfindən daha dərindən öyrənilmişdir ki, bu da öz növbəsində yunan “etos” elminin yaranmasına rəvac vermişdir.

Musiqi, insanların yaradıcı və innovativ düşünmə bacarıqlarını inkişaf etdirən bir vasitədir. Musiqiçilər və musiqi yaradıcıları, daim yeni harmoniyalar, ritmlər və melodiyalar kəşf edərək, innovasiya prosesinə qatılırlar. Bu yaradıcı düşünmə prosesləri, sadəcə musiqi ilə məhdudlaşmır; musiqidən ilham almış şəxsiyyətlər, başqa sahələrdə də (elm, sənət, texnologiya və s.) yeniliklərə imza atırlar. Məsələn, bəzi texnoloji yeniliklər və yeni ideyalar, musiqidən ilham alaraq həyata keçirilmişdir (səs və audio texnologiyaları, musiqinin sintezində yeni texnologiyalar və s.

Musiqi, cəmiyyətin inkişafında vacib bir rol oynayır və bir çox fərqli aspektlərdə təsir göstərir. Onun rolu həm mədəni, həm sosial, həm də iqtisadi sahələrdə özünü göstərir. Musiqi yalnız əyləncə vasitəsi olmaqla yanaşı, insanları bir araya gətirir, sosial əlaqələri möhkəmləndirir, kollektiv yaddaşı formalaşdırır və həmçinin cəmiyyətin təhsil və inkişaf proseslərinə dəstək olur.

Şərq mədəniyyətinin bu naliyyətləri gələcəkdə məhz Yunanstan vasitəsi ilə Avropaya yayılmışdır. Beləliklə məhz Şərq mədəniyyəti, o cümlədən musiqi mədəniyyəti Avropa mədəniyyətinə təsir etmiş və onun əsasında tamamılə yeni xüsusiyyətli, tam mənada sərbəst bir incəsənətin yaranması üçün özül rolunu oynamışdır.

Musiqi, dünyada insan hüquqları və azadlıqları uğrunda mübarizədə mühüm rol oynamışdır. Musiqiçilər, sosial bərabərlik və insan haqlarının qorunması məsələlərində fəal olmuş və olduqca güclü ictimai təsir yaratmışdır. Həmçinin, musiqi bir çox zaman insan haqlarına təcavüzə qarşı bir müqavimət aləti kimi istifadə edilə bilər. Dünyanın müxtəlif bölgələrindəki rejimlər, musiqini bu cür təzyiqlərə qarşı bir silah olaraq istifadə edən insanları susdurmağa çalışmışlar, amma buna qarşı musiqiçilərin ifadə azadlığını qorumağa çalışmaları da çox əhəmiyyətlidir.

Məzmun: Məlumdur ki musiqi öz gözəlliyi ilə insanın ruhuna fəal təhsir edən incəsənətin

növlərindən biridir. Azərbaycan musiqisi çox əsrlik və zəngin tarixə malikdir. Onun kökləri çox qədim zamanlardan- Qobustanda qaya üstü rəsmlərdən başlayaraq öz zənginliyi ilə bizim dövrümüzə qədər gəlib çıxmışdır. Musiqi ruhun qidasıdır və onun insan sağlamlığına təhsiri çox böyükdür. Musiqi insanın ruhuna gözəllik gətirdiyi kimi cəmiyyətin hərtərəfli inkişafına da böyük təhsir göstərir.

Musiqi, insanların ruhi və psixoloji sağlamlığını dəstəkləyən bir vasitədir. Musiqi terapiyası, fərqli psixoloji problemləri olan şəxslərə (depressiya, anksiyete, travma və s.) kömək edən bir metod olaraq geniş tətbiq edilir. Musiqinin ritmik və melodiya təsiri, insanların emosional vəziyyətlərini tənzimləməyə kömək edir. Musiqi, insanların daha balanslı, stressdən uzaq və psixoloji olaraq sağlam bir şəkildə yaşamasına yardım edir. Həmçinin, musiqi insanların öz hisslərini daha yaxşı anlamağı və bu hissləri ifadə etməyi öyrədir. Musiqi, insanları bir araya gətirən və sosial bağları gücləndirən bir vasitədir. Konsertlər, festivallar, müzikli tədbirlər və digər musiqi fəaliyyətləri insanların sosial əlaqələrini gücləndirir, fərqli mədəniyyətlər arasında dialoq yaradır və cəmiyyətin birliyini artırır. Musiqi, həmçinin insanların emosional vəziyyətlərini ifadə etməsinə, stressi azaltmasına və ruhi vəziyyətlərini yaxşılaşdırmasına kömək edir. İnsanlar, musiqi ilə öz duyğularını daha rahat ifadə edirlər və bu da kollektiv şəklində bir duyğusal təcrübə yaradır.

usiqi, cəmiyyətin inkişafını sadəcə əyləncə və mədəniyyət sahəsində deyil, həm də sosial, psixoloji, iqtisadi və siyasi sahələrdə təsir edən güclü bir vasitədir. Musiqinin cəmiyyətə təsiri çoxşaxəlidir və bu təsirlər yalnız indi mövcud olan sosial strukturlarla məhdudlaşmır, həm də tarix boyunca insanların həyatına dərin təsir göstərmişdir. Həm fərdi, həm də kollektiv şəkildə insanların həyatını zənginləşdirən və inkişaf etdirən musiqi, bütün dünyada insanların birləşməsinə və daha sağlam, firavan cəmiyyətlər qurulmasına kömək edir.

XIX ərsin ikinci yarısından başlayaraq Azərbaycanda incəsənətin bütün sahələri sürətlə inkişaf etməyə başladı. Bu dövürdə xanəndələr yeni-yeni təsniflər və mahnılar yaratmışlar. Repertuarları xalq yaradıcılığından ibarət olan musiqiçilərimiz Əli Əsgər, Sadıqcan, Məşədi Zeynal, Lazar Ter, Cavadbəy Əlibəyoğlu, Bala oğlu Qrikor, Mirzə Mənsur Mənsurov, Mərdi Canıbəyov, Məşədi Cəmil Əmirov, Şirin Axundov, Qurban Primov, Bala Məlikov və başqaları musiqi mədəniyyətimizin inkişafında, şəxsiyyətin hərtərəfli inkişafında mühüm rol oynamışlar. Bu xalq sənətkarları böyük bəstəkarımız Üzeyir Hacıbəyovun qeyd etdiyi kimi, gözəl və ustad sənətkar olmaqdan başqa xalq musiqi yaradıcılığını meydana çıxaran onu canlandıran, əsaslandıran tükənməz bir mənbədirlər. Müasir dövrdə cəmiyyətin inkişaf etməsində bəstəkarlarımızın rolunu qeyd etmək vacibdir. Bunlardan Üzeyir Hacıbəyov, Qara Qarayev, Fikrət Əmirov, Rauf Hacıyev, Fərhad Bədəlbəyli, Emin Sabitoğlu, Tofiq Quliyev və bunun kimi bir çox sənətkarlar musiqimizin zənginləşməsində böyük xidmət göstərmişlər.

Musiqi təhsili, təkcə bədii ifadəni inkişaf etdirmək deyil, həm də intellektual və sosial bacarıqları artırmaq deməkdir. Musiqi təhsili şagirdlərə və gənclərə analitik düşüncə, yaradıcılıq, əməkdaşlıq, və şəxsiyyətin inkişafı kimi vacib bacarıqları qazandırır. Musiqinin ritmik strukturları və harmonik formaları, beyin inkişafını stimullaşdırır və insanın diqqətini, yaddaşını və problemləri həll etmə bacarığını gücləndirir. Həmçinin musiqi, əməkdaşlıq və kollektiv işləmə bacarığını inkişaf etdirən bir vasitədir, çünki orkestrlərdə və musiqi qruplarında iştirak edən şəxslər qarşılıqlı əlaqə qururlar.

Çünki musiqi və mədəniyyət ta qədim zamanlardan indiyə qədər insanların həyatında mühüm rol oynamışdır.

Musiqi, cəmiyyətin inkişafında çoxşaxəli və təsirli bir rol oynayır. Onun vasitəsilə insanlar mədəni kimliklərini qoruyur, sosial əlaqələr qurur, psixoloji və emosional vəziyyətlərini idarə edir və eyni zamanda cəmiyyətin təhsil və iqtisadi inkişafına təkan verir. Musiqinin gücü, onun müxtəlif funksiyaları və cəmiyyətin hər sahəsindəki təsiri ilə ölçülə bilməz.

Musiqi, cəmiyyətlər arasında qarşılıqlı anlaşma və anlayışın inkişafına kömək edir. Farklı mədəniyyətlərdən gələn insanlar, musiqi vasitəsilə bir-birini daha yaxşı anlayır və bir-birinin həyat təcrübələrinə daha açıq olurlar. Musiqi festivalları, konsertlər və qlobal musiqi layihələri, fərqli xalqların, mədəniyyətlərin və millətlərin bir araya gəlməsini təmin edir. Bu, insanları və cəmiyyətləri daha möhkəm əlaqələrlə birləşdirir və müxtəlifliklərə saygı göstərir.

**Nəticə**

Musiqi, insanların çətin anlarında güclənməsi və mübarizə etməsi üçün bir psixoloji dəstək rolunu da oynayır. Depressiya, travma və ya itki kimi çətinliklər qarşısında musiqi, insanlara rahatlıq və mənəvi dəstək verir. Bəzi musiqi janrları (məsələn, ilahi musiqilər, meditasiya musiqisi, rahatlatıcı melodiyalar) insanları emosional cəhətdən qaldırır və onlara ümidsizlikdən çıxmağa kömək edir.

Azərbaycanın musiqi mədəniyyətin inkişaf etməsində musiqinin imkanlarından bəhs edir. Musiqisiz mədəniyyət ola bilməz.İncəsənət mədəniyyətin bir hissəsidir. Mövzuda məhz bundan bəhs edilmişdir. Mədəniyyətin nailiyyətlərində inkişaf etməsində musiqi böyük imkanlara malikdir.

Mədəniyyət insanın və cəmiyyətin inkişafının müasir səviyyəsi, insanın yaratdığı nəsildən –nəsilə ötürdüyü maddi və mənəvi dəyərdir.

Mədəniyyət-insanların həyat fəaliyyəti formalarının müxtəlifliyi, mücərrəd anlayışda həyatın becərilməsi, onun insaniləşdirilməsi, xalqların tarixi yaddaşıdır.

## ƏDƏBİYYAT

1.Ü.Hacıbəyov Azərbaycan xalq musiqisinə bir nəzər .Seçilmiş əsərlər.
Bakı 1985
2.M.S.İsmayılov Azərbaycan xalq musiqisinin janrları. Bakı.1960
3.R. Zöhrabov Muğam Bakı 1963
4. E.Babayev Qədim musiqi Bakı 1988

***Naxçıvan Dövlət Universiteti**
***sənətşünaslıq üzrə fəlsəfə doktoru***
***E-mail: sceferova696@gmail.com***

**Sevinj Asgarova**

## THE ROLE OF MUSIC IN THE DEVELOPMENT OF SOCIETY

Music and art have played a significant role in human life since ancient times and have had an irreplaceable place in the development of society. Music, as an art form that influences the human soul through artistic images, is based on various theories, including those suggesting that music originates from human speech, biological nature, and the labor process.

In ancient times, musical instruments developed gradually, starting with percussion instruments, followed by wind instruments, and eventually string instruments. The earliest information about musical culture comes from the ancient Eastern civilizations, particularly Egypt and Mesopotamia. Egyptian music culture is considered one of the oldest in the world, and its high level is confirmed by written sources.

Eastern culture and music were closely linked with poetry and dance, and music was often explained through cosmic events and the seasons of nature. These ideas later influenced Greek culture, contributing to the development of new musical and philosophical thoughts in Europe.

Azerbaijani music has a rich history, with roots tracing back to the ancient petroglyphs of Gobustan. After the second half of the 19th century, rapid development took place in Azerbaijan's music scene, with famous singers and composers, including Uzeyir Hajibeyov, Kara Karayev, and Fikret Amirov, playing a crucial role in enriching Azerbaijani music and contributing to societal development.

In conclusion, music and art, as an integral part of culture, are of great significance in the development of both individuals and society.

**Keywords:** *History, music, ancient culture, art, society, people.*

**Севиндж Асгарова**

## РОЛЬ МУЗЫКИ В РАЗВИТИИ ОБЩЕСТВА

Музыка и искусство с древнейших времен играют важную роль в жизни человека и занимают неотъемлемое место в развитии общества. Музыка — это вид искусства, который воздействует на душу человека через художественные образы. Существует множество теорий о происхождении музыки, которые объясняют её возникновение с точки зрения человеческой речи, биологии и трудового процесса.

В древние времена музыкальные инструменты развивались поэтапно: сначала появились ударные инструменты, затем духовые и, в конце концов, струнные. Первые сведения о музыкальной культуре можно найти в древнем Востоке, особенно в Египте и Месопотамии. Музыкальная культура Египта считается одной из самых древних в мире, и её высокий уровень подтверждается письменными источниками.

Восточная культура, в том числе музыка, тесно связана с поэзией и танцем. Музыка часто объяснялась через космические явления и природные циклы. Эти идеи позже перешли в греческую культуру и оказали влияние на развитие философии и музыки в Европе.

Азербайджанская музыка имеет богатую историю, и её корни уходят в глубокую древность, начиная с наскальных рисунков Гобустана. Со второй половины XIX века в Азербайджане произошло стремительное развитие музыкальной культуры, и многие знаменитые исполнители и композиторы, такие как Узейир Гаджибейов, Кара Караев и Фикрет Эмиеров, сыграли ключевую роль в её обогащении и в развитии общества.

Таким образом, музыка и искусство, являясь неотъемлемой частью культуры, имеют огромное значение как для развития человека, так и для прогресса общества.

**Ключевые слова**: *История, музыка, древняя культура, искусство, общество, народ.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 12.01.2025**
**Son daxilolma tarixi:19.02.2025**